**Mənalı və şərəfli ömrünün 25 ilini Azərbaycan təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş, müstəqil dövlətimizin banisi ulu öndər Heydər Əliyev bu orqanların fəaliyyətini daim diqqət mərkəzində saxlamış, onu dövlətə və xalqa sadiq quruma çevirmək istiqamətində məqsədyönlü qərarlar qəbul etmiş, milli kadrların hazırlanmasına və yetişdirilməsinə xüsusi önəm vermişdir. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, hər bir qurumun, xüsusilə də təhlükəsizlik orqanlarının uğurlu fəaliyyətini ixtisasını dərindən mənimsəyən, qarşıya qoyulmuş vəzifələrə məsuliyyətlə yanaşan və onları yüksək səviyyədə həyata keçirməyi bacaran peşəkar kadrlar təmin edir. Bunun əhəmiyyətini dərindən dərk edən Heydər Əliyev 1992-ci ildə yaradılmış xüsusi kursların bazasında Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanlarını xüsusi ixtisaslı, ali təhsilli zabit kadrlarla təmin etmək məqsədilə 1 dekabr 1998-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması barədə Sərəncam imzaladı. Bununla da Azərbaycanda ilk dəfə olaraq xüsusi xidmət orqanlarımızı milli və peşəkar zabit kadrlarla təmin edəcək təhsil ocağının təməli qoyuldu. Onun məqsədi milli kadrlar hazırlamaqla bərabər, həm də gənclərdə milli təfəkkürü formalaşdırmaq istəyi idi.**



# Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının yaranmasının 23-cü ildönümüdür

Dahi rəhbər Heydər Əliyev 1999-cu il 29 mart tarixində Azərbaycan milli təhlükəsizlik orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında bildirmişdir: "Təhlükəsizlik orqanları üzərinə düşən vəzifələri yerinə yetirmək üçün öz peşəkarlıq fəaliyyətini, təcrübəsini daha da artırmalıdır. Bilikli, gənc, müasir tələblərə cavab verən kadrlar hazırlanmalıdır... Güman edirəm ki, təhlükəsizlik orqanlarının Akademiyası tezliklə fəaliyyətə başlayacaqdır və bu vəzifənin yerinə yetirilməsi üçün öz xidmətlərini göstərəcəkdir... Ancaq sədaqətli, bilikli, peşəkar kadrlar hazırlanmalıdır".

Şübhəsiz ki, belə bir Akademiyanın yaradılması və fəaliyyətə başlaması kimi ciddi işin kimə tapşırılması və ya kimə etibar edilməsi məsələsi də ulu öndəri

> Akademiya Heydər Əliyevin adını daşıyır və əlbəttə, bu, əlavə məsuliyyət deməkdir. Akademiyanın bütün fəaliyyəti gərək bu ada layiq olsun. Mən ümid edirəm ki, belə olacaq və bu Akademiyada oxuyan kursantlar gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində fəal rol oynayacaqlar.

narahat etməyə bilməzdi. Ona görə də Heydər Əliyev 28 iyun 1999-cu il tarixli Sərəncamı ilə hələ sovetlər dönəmində öz peşəkarlığı, prinsipiallığı və ciddiliyi ilə seçilən, uzun illər respublikanın təhlükəsizlik orqanlarında fəaliyyət göstərən, bu orqanlara rəhbərlik edən, böyük həyat və əməliyyat təcrübəsinə malik olan general-leytenant Ziya Məmmədiyyə oğlu Yusif-zadəni Akademiyanın rəisi vəzifəsinə təyin etdi. Ziya Yusif-zadənin Akademiyanın nüfuzlu xüsusi təyinatlı ali təhsil müəssisəsi kimi formalaşmasında danılmaz və önəmli xidmətləri olmuşdur.

23 illiyini təntənəli surətdə qeyd etdiyimiz Akademiyanın tarixi bir çox yaddaqalan hadisələrlə zəngin olmuşdur. Belə ki, 2005-ci il dekabr ayının 20-də Heydər Əliyevin milli təhlükəsizlik orqanlarının inkişafındakı əvəzsiz xidmətlərini nəzərə alaraq və onun əziz xatirəsini əbədiləşdirmək məqsədilə Akademiyaya möhtərəm Prezident İlham Əliyevin Fərmanı ilə ümummilli liderimizin adı verilmişdir. Bu tarixi hadisəni bütün şəxsi heyət böyük ruh yüksəkliyi ilə qarşılamışdır.

2006-cı il mart ayının 27-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Akademiyaya təşrif buyurması, ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsinin və "Şöhrət" muzeyinin açılış mərasimlərində iştirak etməsi, abadlıq və quruculuq işləri ilə yerində tanış olması ali təhsil müəssisəsinin tarixində yeni və parlaq bir səhifə açmışdır. Cənab Prezidentimiz tərəfindən Akademiyaya Döyüş Bayrağının təqdim olunması Silahlı Qüvvələrin Ali Baş Komandanının kollektivə göstərdiyi böyük inamın və etimadın təzahürü idi.

Döyüş bayrağı əsgəri şərəf və şücaət rəmzidir. O, Akademiyanın hər bir hərbi qulluqçusuna Vətənə sədaqətlə xidmət etmək, öz qanını və canını belə əsirgəmədən onu mərdlik və bacarıqla müdafiə etmək, verilən tapşırıqları əzmlə yerinə yetirmək, doğma torpağın hər qarışını düşməndən qorumaq borcunu xatırlatmaq üçündür.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Akademiyanın şəxsi heyəti qarşısında etdiyi proqram xarakterli çıxışında demişdir: "Bu gün Akademiya ilə tanış olarkən gördüm ki, burada işlər yüksək səviyyədə qurulub. Kursantlar bütün bu imkanlardan səmərəli istifadə etməli, yaxşı oxumalı, bu peşəyə yiyələnməlidirlər. Akademiya Heydər Əliyevin adını daşıyır və əlbəttə, bu, əlavə məsuliyyət deməkdir. Akademiyanın bütün fəaliyyəti gərək bu ada layiq olsun. Mən ümid edirəm ki, belə olacaq və bu Akademiyada oxuyan kursantlar gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində fəal rol oynayacaqlar".

Bütün bunlar göstərir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyası Silahlı Qüvvələrin Ali Baş Komandanının daim diqqət mərkəzində olmuş və hərtərəfli qayğısı ilə əhatə edilmişdir.

Hazırda DTX-nın Akademiyasında kursant və dinləyicilər üçün yaradılmış şərait lazımi biliklər qazanmağa və milli kadr kimi yetişməyə imkan verir. Akademiyanın maddi-texniki bazasına geniş və işıqlı, hər cür texniki və əyani vəsaitlərlə təmin olunmuş auditoriyalar, fənn kabinetləri, xüsusi və ümumi kitabxanalar, kursantların fiziki və əməliyyat-döyüş hazırlığı üçün zəruri olan İdman və Sağlamlıq Mərkəzi, müasir tələblərə cavab verən yataqxanalar, istirahət otaqları, tibb xidməti, yeməkxanalar, audio-video qurğularla təchiz olunmuş klublar və digər infrastrukturlar daxildir. Bütün bunlar kursantların fiziki və döyüş hazırlığının yüksək səviyyədə olmasına münbit şərait yaradır.



Qeyd olunanlarla yanaşı, tədrisin keyfiyyətini yüksəltmək, eləcə də professor-müəllim heyətinin iş şəraitini yaxşılaşdırmaq məqsədilə Akademiyanın fənn kabinet və auditoriyaları müasir kompüterlər, audio-video texnika, proyektorlar, rabitə və digər texniki vasitələrlə yüksək səviyyədə təchiz edilmişdir. Müasir informasiya texnologiyalarının və beynəlxalq informasiya resurslarının tədrisdə istifadəsini təmin etmək məqsədilə Akademiyada yaradılmış kompüter sinifləri internet şəbəkəsinə qoşulmuşdur.

Yüksək memarlıq və bədii-estetik səviyyədə qurulmuş, unikal məzmuna və tərtibata malik olan "Şöhrət" müzeyi Akademiya

> Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işi peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran əsas vəzifədir. Bu yolda Akademiyanın professor-müəllim və zabit heyətinin də əməyi böyükdür.

kompleksində xüsusi yer tutur. Muzeydə nümayiş etdirilən zəngin və dəyərli ekspozisiyalar, ümummilli liderin bu gün də tədris prosesində istifadə olunan əməliyyat işləri ilə bağlı materialları hər bir azərbaycanlı gəncə öz vətənini və peşəsini dahi öndər Heydər Əliyev kimi sevməyi öyrədir. "Şöhrət" muzeyində dahi şəxsiyyətin təhlükəsizlik orqanlarındakı fəaliyyəti, eyni zamanda ömür yolu geniş formatda, zəngin faktlarla və daha konseptual əks olunmuşdur.

Akademiyada "Əməliyyat işçilərinin hazırlanması", "İnformasiya təhlükəsizliyi" və "Əlavə təhsil" fakültələri, 11 kafedra və İdman və Sağlamlıq Mərkəzi fəaliyyət göstərir. Bu fakültələrdə təhlükəsizlik orqanları üçün əks-kəşfiyyat, hərbi əks-kəşfiyyat, terrorçuluqla, transmilli mütəşəkkil və kiber cinayətkarlığa qarşı mübarizə, informasiya təhlükəsizliyi və digər istiqamətlərdə peşəkar əməliyyatçı kadrlar hazırlanır.

Akademiyaya kursant qəbulu Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin test imtahanları vasitəsilə həyata keçirilir. Qəbul olan kursantlar arasında 600 baldan yuxarı bal toplayan abituriyentlər üstünlük təşkil edir. Ən yüksək bal toplayan kursantlar Prezident təqaüdü ilə təmin olunurlar. Akademiyaya qəbul olunan kursantlar tam dövlət təminatına götürülür və onlara aylıq pul ödənilir. Bundan əlavə, DTX-nın rəisinin əmri ilə təhsildə yüksək müvəffəqiyyət qazanan, elmi-yaradıcılq fəaliyyəti ilə məşğul olan və Akademiyanın ictimai həyatında fəal iştirak edən, Ulu Öndərin siyasi və peşəkarlıq irsinə dərindən yiyələnən, vətənə, xalqa, dövlətə sədaqətli olan əlaçı kursantlara Heydər Əliyev adına təqaüd verilir. Akademiyanı bitirən məzunlara ilkin "leytenant" zabit hərbi rütbəsi verilməklə ali təhsil almaları barədə diplom təqdim olunur.

Akademiyada kursantlara hüquq, ictimai-siyasi, xarici dillər, eləcə də xüsusi fənlər üzrə elmi biliklər verilir. Hüquq sahəsinin dərindən öyrənilməsi kursantların qarşısında vəzifə kimi qoyulmuşdur. Hüquq-mühafizə orqanlarının fəaliyyəti məhz qanunların aliliyi prinsipinə söykənir. Hüquq fənlərinin Akademiyada tədrisi bir tərəfdən kursantlara hüquq və vəzifələri dərindən mənimsəməyə, digər tərəfdən isə gələcək fəaliyyətlərini səmərəli və qanunauyğun bir formada həyata keçirməyə imkan verir. Xüsusi fənlərin tədrisinin də mühüm əhəmiyyətə malik olduğu vurğulanmalıdır.

Akademiyanın elmi-tədris fəaliyyətinə rəhbərliyi kollegial orqan olan Elmi Şura həyata keçirir. Elmi Şuranın qərarı ilə yaradılan "Əliyevşünaslıq mərkəzi", "Kursant elmi cəmiyyəti" kursantların intellektual səviyyələrinin artması istiqamətində mühüm rol oynayır.

Möhtərəm Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2019-cu ildə general-polkovnik Əli Nağıyevin Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsinə təyin olunmasından sonra DTX-nın Heydər Əliyev adına Akademiyasında ciddi və əsaslı islahatlar həyata keçirildi. General-polkovnik Əli Nağıyevin rəhbərliyi və xüsusi diqqəti ilə qısa müddətdə həyata keçirilən kompleks tədbirlər nəticəsində Akademiya özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

2021-ci ildə Heydər Əliyev Mərkəzinin və Təhsil Nazirliyinin ənənəvi olaraq birgə həyata keçirdiyi "Heydər Əliyev və Azərbaycan tarixi" adlı ümumrespublika bilik yarışında DTX-nın Heydər Əliyev adına Akademiyasının

> Heydər Əliyevin təhlükəsizlik orqanlarında xidmət və rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi əməliyyat tədbirləri gənclərimiz üçün örnəkdir.

kursantlarının respublikanın 50-yə yaxın ali təhsil müəssisəsinin tələbə və magistrları arasında 1-ci yeri qazanmaları onların yüksək intellektə malik olduqlarının bariz göstəricisidir. Bununla yanaşı, kursantlar yalnız elm sahəsində deyil, idman sahəsində də Akademiyanın adını yüksəltməyə çalışırlar.

Akademiya gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır və yarandığı gündən bu prosesi inamla və qətiyyətlə həyata keçirir. Belə ki, Akademiya Azərbaycan Respublikasının milli təhlükəsizliyinin qorunması, milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri, informasiya təhlükəsizliyi, vətəndaşın, cəmiyyətin və dövlətin təhlükəsizliyi haqqında, cəmiyyətin müxtəlif sahələri üzrə təhlükəsizliyin təmin olunması istiqamətləri kimi mövzularda orta məktəb şagirdləri üçün seminarlar təşkil etmiş, onların Vətənin təhlükəsizliyi, müdafiə olunması haqqında biliklərə yiyələnmələri üçün silsilə tədbirlər təşkil etmişdir. Akademiyanın professor-müəllim heyəti vaxtaşırı ümumtəhsil məktəblərində vətənpərvərlik, dövlətçilik, təhlükəsizliklə bağlı tədbirlər təşkil edir. Bu tədbirlərdə əsasən aşağıdakı məsələlərə xüsusi diqqət yetirilir:

- hərbi vətənpərvərlik;
- milli-mənəvi dəyərlərin təbliği və aşılanması;
- Vətənə, torpağa və millətə sədaqət;
- dövlətçilik təfəkkürünü formalaşdırmaq və inkişaf etdirmək.

Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işi peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran əsas vəzifədir. Bu yolda Akademiyanın professor-müəllim və zabit heyətinin də əməyi böyükdür.

Hansı peşədə çalışmasından asılı olmayaraq, gənclərimizin milli qürur hissinə sahib olan, dövlətçiliyimizi göz bəbəyi kimi qoruyan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır olan vətəndaşlar kimi formalaşmasında hər kəs birgə fəaliyyət göstərməlidir. Bu istiqamətdə işlərin aparılmasında DTX-nın Heydər Əliyev adına Akademiyasının da üzərinə böyük işlər düşür.

Müasir Azərbaycan Ordusunun qurucusu, ümummilli liderimiz Heydər Əliyev gənclərimizin hərb peşəsinə marağının gücləndirilməsi işinə ciddi diqqət yetirərək demişdir: "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır". Heydər Əliyevin təhlükəsizlik orqanlarında xidmət və rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi əməliyyat tədbirləri gənclərimiz üçün örnəkdir.

Hər il minlərlə şagird, aparıcı universitetlərin tələbələri Akademiyanın "Şöhrət" muzeyini ziyarət edir və ulu öndər Heydər Əliyevin təhlükəsizlik orqanının rəhbəri, dövlət başçısı kimi keçdiyi şərəfli həyat yolu haqqında məlumatlara yiyələnirlər. Bütün bu faktlar, həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, psixoloji, fiziki hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəlməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli dəyərlərin qorunub saxlanılmasına xidmət edir.

Azərbaycan Respublikasının başlıca təməl prinsipləri olan hüquqi, demokratik, dünyəvi, konstitusion dövlət quruluşunun qorunması üzrə vəzifələri dərindən dərk edən DTX-nın Heydər Əliyev adına Akademiyasının şəxsi heyəti bundan sonra da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi etimadı və etibarı layiqincə doğrultmaq, müstəqil dövlətimizin təhlükəsizliyini təmin etmək üçün qarşıda duran vəzifələri şərəflə yerinə yetirmək əzmindədir.

**Allahverən İSMAYILOV,**
**Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi, general-mayor.**